## AQTA ilə əməkdaşlıq fəaliyyətləri

- AQTA IPPC çərçivəsində regional seminarlar, praktiki təlimlər və texniki dəstək proqramlarında fəal iştirak edir. Eyni zamanda, ölkədə IPPC-nin prinsiplərinin yayılması və yerli mütəxəssislərin bilik və bacarıqlarının artırılması məqsədilə mütəmadi maarifləndirmə işləri aparılır.
- AQTA 2025-ci ilin yanvar ayından etibarən IPPC-nin E-phyto elektron sistemi vasitəsilə fitosanitar sertifikatların rəqəmsal mübadiləsinə qoşulmuşdur. Hazırda Agentlik bu sistem vasitəsilə bir sıra ölkələrlə fitosanitar sertifikatların elektron formada qarşılıqlı mübadiləsini uğurla həyata keçirir.
- 2023-cü il 23 fevralda AQTA ilə IPPC nümayəndə heyəti arasında keçirilən görüşdə Azərbaycanın E-phyto sisteminə qoşulması üzrə sistemlərin inteqrasiyası zamanı həyata keçirilməli tədbirlər və mərhələlər barədə fikir mübadiləsi aparılmışdır.
- 2022-ci il 7 sentyabrda IPPC-nin Baş katibi Osama El-Lissy və EPPO-nun sədr müavini Sultan-Mahmud Sultanov AQTİ-ni ziyarət etmiş, AQTİ-nin fəaliyyəti, beynəlxalq əməkdaşlıqları, laboratoriya imkanları və texniki infrastrukturu ilə tanış olmuşdur.
- 2022-ci ildə Azərbaycanda IPPC-nin Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional seminarı keçirilmişdir. Tədbir 5–7 sentyabr tarixlərində Bakıda, eyni zamanda Parislə hibrid formatda baş tutmuşdur. Seminarda 20 ölkədən 40-dan çox nümayəndə iştirak etmişdir. Seminarda bitki sağlamlığı sahəsində beynəlxalq standartların tətbiqi, fitosanitar nəzarət sistemlərinin təkmilləşdirilməsi və elektron fitosanitar sertifikatlaşdırma (ePhyto) məsələləri müzakirə olmuşdur. Tədbir FAO, IPPC Katibliyi, EPPO və AQTA-nın birgə təşkilatçılığı ilə həyata keçirilmişdir.